# "Qərbi Azərbaycan aşıqlarının dastan repertuarı" adlı layihəyə başlanılıb

Ötən il Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin dəstəyi ilə "Çağdaş Qərbi Azərbaycan aşıqlarının musiqi repertuarı adlı layihəni uğurla həyata keçirən Azərbaycan Aşıqlar Birliyi Agentliyin 2025-ci il üçün kiçik qrant müsabiqəsində də qalib olanlar sırasındadır. Bu il həyata keçirilməsi nəzərdə tutulan layihənin mövzusu yenə Qərbi Azərbaycanla bağlıdır. Üç ay ərzində yekunlaşdırılması nəzərdə tutulan layihənin icrasına başlanılıb.

Bu barədə Azərbaycan Aşıqlar Birliyindən məlumat verilib.

Bildirilib ki, ötənilki layihənin bir növ davamı olan hazırkı layihə "Qərbi Azərbaycan aşıqlarının dastan repertuarı" adlanır. Layihənin həyata keçirilməsində əsas məqsəd Azərbaycan aşıq sənətinin inkişafında Qərbi Azərbaycan aşıq mühitlərinin mühüm rol oynamasına diqqət yönəltmək, öz dədə-baba torpaqlarından didərgin salınaraq bu gün Azərbaycanın müxtəlif guşələrində məskunlaşmış aşıqların yaradıcılıq fəaliyyətinə əlavə stimul verməkdir.

Azərbaycan.- 2025.- 14 iyun (№121).- S.9.